# İşıqlı yolun yolçusu

**Müdrik peyğəmbərimiz Hz.Məhəmməd də yazırdı ki, "Alimləri qoruyun, onlar dünyanın nuru, axirətin çırağıdırlar". Yaşadıqları ömür payında kitab ömrü yaşayan belə elm adamları dünyaya saçdıqları işığın nuruyla bəşəriyyəti həqiqətin, ədalətin və xoşbəxtliyin yolunda aydınlığa çıxarırlar.**

Cəmiyyətimizin bu cür işıqlı ziyalılarından biri də ömrünü, illərini elmə, təhsilə, təlim-tərbiyəyə həsr etmiş kamil insanlardan olan, həyatının ən gözəl çağında 80 illiyini qarşılayan Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Vaqif Bilas oğlu Şadlinskidir!

Bu görkəmli alimin həyat yoluna nəzər saldıqda, insanın diqqətini ilk növbədə xalqımızın tarixində salnamə yaradan bu soyadın işığı cəlb edir. Professor Vaqif Şadlinskinin mənsub olduğu nəsil, Azərbaycanın tarixində dəyərli izlər qoymuş, böyük xidmətlər göstərmiş əsilzadə şəxsiyyətlər yetirmişdir: Aslan Sultan Şadlinski, Nəsrulla bəy Şadlinski, Abasqulu bəy Şadlinski, Bilas Şadlinski, Vaqif Şadlinski və digərlərinin fəaliyyəti gələcək nəsillərə örnək ola biləcək səhifələrlə zəngindir.

Hazırda bu nəslin layiqli davamçısı—ölkəmizin elm və təhsil işçilərinə, səhiyyə sahəsində çalışanların böyük əksəriyyətinə yaxşı tanış olan, vətənpərvər ziyalı, tibb elmləri doktoru, professor Vaqif Şadlinskidir.

Vaqif Şadlinski 1940-cı il yanvarın 24-də Vedi rayonunun Böyük Vedi kəndində ziyalı ailəsində anadan olub. Sovet hakimiyyətinin deportasiya siyasəti nəticəsində 1948-ci ildə erməni daşnakları tərəfindən dədə-baba yurdlarından didərgin salınan Vaqif Şadlinskinin ailəsi Şəmkirə gəlib, Leninkənddə (indiki Çinarlı qəsəbəsi) məskunlaşıb. Vaqif Şadlinskinin uşaqlıq illəri 1948-1950-ci illərin məşəqqətli köçkünlük dövrünə təsadüf edir. Orta məktəbin 8-ci sinfinəcən Aşağı Seyfəli kənd orta məktəbində, yuxarı sinifləri isə Leninkənd qəsəbə orta məktəbində oxuyub.1963-cü ilin yayında Bakıya gəlib, sənədlərini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsinə verib, 1968-ci ildə institutu fərqlənmə diplomu ilə bitirdi və Elmi Şuranın qərarı ilə oxuduğu ali təhsil ocağında saxlandı. Bununla da onun həyatında böyük bir yolun başlanğıcı qoyuldu.1982-ci ildə namizədlik, 1999-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edib. 1995-ci ildən insan anatomiyası kafedrasına rəhbərlik edir. Müxtəlif illərdə ATU-da müalicə-profilaktika fakültəsinin dekan müavini, ATU Həmkarlar İttifaqı Komitəsinin sədri, ümumi işlər və tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. V.B.Şadlinski Şərq aləmində ilk anatomiya atlasının, Tibb Universitetinin müxtəlif fakültələri üçün Azərbaycan və rus dillərində anatomiya dərsliklərinin, anatomik terminologiya kitabının, 25 dərslik, 28 dərs və tədris-metodik vəsaitin, 19 monoqrafiyanın, 413-dən artıq elmi, 29 elmi-publisistik məqalənin müəllifidir. V.B.Şadlinski 7 doktorluq və 15 namizədlik işinin elmi məsləhətçisi və rəhbəridir...

V.Şadlinskinin apardığı elmi-tədqiqat işləri morfologiya elminin bir çox sahələrini əhatə edir. Belə ki, onun tərəfindən ontogenezin müxtəlif mərhələlərində insanın periferik sinir sisteminin ayrı-ayrı şöbələrinin topoqrafo-anatomik xüsusiyyətləri, periferik sinirlərin mieloarxitektonikası və mielogenezinin qanunauyğunluqları öyrənilmiş, normada və zobogen təsirlər zamanı qalxanabənzər vəzinin morfo-funksional xüsusiyyətləri tədqiq edilmişdir. Eyni zamanda o, qalxanabənzər vəzinin morfo-funksional vahidinin tireomorfo kompleksdən ibarət olduğunu müəyyənləşdirmişdir. V.Şadlinski diri insanda bəzi orqanların anatomo-topoqrafik xüsusiyyətlərinin qiymətləndirilməsində rentgenkontrast tədqiqat metodlarından istifadə edilməsinin mümkünlüyünü də sübuta yetirmişdir. Bunlarla yanaşı, V.Şadlinski və onun tələbələri tərəfindən həzm, tənəffüs, sidik-cinsiyyət sistemi orqanlarının divarlarında yerləşən kiçik ekzokrin vəzilərinin və limfoid aparatının morfo-funksional anatomiyası normada və bəzi balneoloji təsirlərdən sonra eksperimentdə öyrənilmiş, müxtəlif rejimli fiziki yükün təsirindən sonra skelet və ürək əzələsi toxumasında baş verən morfo-fuksional dəyişikliklər tədqiq edilmişdir. Əldə olunan nəticələrin müddəaları səhiyyə praktikasına tətbiq edilmişdir. Aparılan elmi-tədqiqat işlərinin nəticələri barədə ABŞ-da, Rusiya Federasiyasında, Türkiyədə, İsraildə, Almaniyada, Macarıstanda, Bolqarıstanda və b. ölkələrdə keçirilmiş elmi konfranslarda V.Şadlinski tərəfindən məruzələr edilmiş, onun çıxışlarının mətnləri həmin ölkələrin elmi məcmuələrində çap olunmuşdur. 2019-cu ilin dekabrında Təhsil Nazirliyi, Azərbaycan Tibb Universiteti rəhbərliyi, ictimai təşkilatlar, professor-müəllim heyəti və tələbələr professor Vaqif Şadlinskinin rəhbərlik etdiyi İnsan anatomiyası və terminologiya kafedrasının, eləcə də MDB və Şərq ölkələrində analoqu olmayan İnsan anatomiyası muzeyi yaradılmasının 90 illiyini qeyd etdilər. Professor Vaqif Şadlinskinin təşəbbüsü və müstəsna təşkilatçılıq qabiliyyəti sayəsində beynəlxalq aləmdə tanınan İnsan anatomiyası və terminologiya kafedrasının Tədris muzeyi yenidən qurulmuş, tarixi ənənələr saxlanılmaqla yeni şöbələr yaradılmış, sahəsi genişləndirilmiş, çox qiymətli eksponatlar və təbii preparatlarla zənginləşdirilmişdir. Burada insanın yaranması və inkişafını əks etdirən müxtəlif orijinal preparatlar, mulyajlar, orqanizmi təşkil edən üzv və üzvlər sistemi, damar və sinirləri təsvir edən təbii muzey preparatları olduqca çoxdur. Təsadüfi deyil ki, həm də müxtəlif ölkələrdən respublikamıza, eləcə də Azərbaycan Tibb Universitetinə gələn xarici qonaqlar çox böyük maraq və həvəslə anatomiya muzeyinə gəlir, orada olan eksponatları seyr edib, öz ürək sözləri ni rəy kitabına yazaraq, çox böyük təəssüratlarla buradan ayrılırlar.

Professor Vaqif Şadlinski İnsan anatomiyası və terminologiya kafedrasının müdiri vəzifəsində çalışdığı son 15 ildə tədrisin dünyanın inkişaf etmiş ali məktəblərinin kəmiyyət və keyfiyyət göstəriciləri səviyyəsində qurulması üçün universitet rəhbərliyi tərəfindən aparılan islahatlarda, tədbirlərdə yaxından iştirak edir. Uzun illər ömrünü tibb elminin vacib sahələrindən biri olan insan anatomiyasının öyrənilməsinə həsr edən professor V.Şadlinskinin müsahibələrindən birində oxuyuruq: "Anatomiya elmi təbabətin yarandığı dövrdən bu günə qədər öyrənilməyə başlayıb. Tibb ocaqlarının hər birində anatomiya elmini tədris etməyə başlayıblar. Hətta, başqa universitetlərdə də anatomiyanın tədrisi vacib buyrulurdu. Çünki, dünyanın ən ali neməti, yaradıcısı insandır. Heç bir həkim insan bədəninin quruluşunu bilmədən bu peşəyə istədiyi kimi yiyələnə bilməz. Ona görə də böyük alimlər də bunu qeyd edib ki, anatomiyasız tibb yoxdur. Hətta dünyanın ən istedadlı şəxsiyyətləri I Pyotr, Leonardo da Vinçi kimi insanların bədən quruluşunu bilmək üçün anatomiya elminin sirlərini öyrəniblər".

Professor V.Şadlinski böyük alim olmasıyla yanaşı, həm də gözəl pedaqoq kimi tələbələrin sevimlisidir. Böyük Mustafa Kamal Atatürk yazırdı ki, əsl ziyalı ətrafına işıq saçmağı bacaranlardır. Vaqif Şadlinski bu uca zirvəsindədir. Vaqif müəllim xarakter etibarilə ciddi, tələbkar, prinsipial, qayğıkeş insandır. Müəllimin tələbkarlığı, obyektivliyi və şəxsiyyət bütövlüyü bir-birini tamamlayanda eşidilən, sayılan insan kimi hörmət və ehtiram sahibi olmaqla ucalardan uca görünür. Bu isə ali məktəb müəllimləri üçün ən vacib şərtlərdəndir. Çünki gənclər həyatda və sənətdə kiməsə oxşamağa çalışır, kimi isə özlərinə ideal hesab edirlər. Təsadüfi deyil ki, Vaqif müəllim təhsil, təlim-tərbiyə sahəsində əldə etdiyi uğurlara görə ATU-nun rektorluğu və respublika Səhiyyə Nazirliyi tərəfindən dəfələrlə fəxri fərmanlara layiq görülmüşdür.

İndiyədək yüzlərlə həkim kadrları ilə yanaşı, elmi kadrların hazırlanması işində böyük təcrübə sahibi olan professor V.Şadlinski deyir: "Hansı sahədə mütəxəssis olmağın əhəmiyyəti yoxdur. Əsl alim tanınmalıdır, bunu ilk növbədə biz ziyalılar etməliyik. Gələcək nəsillər öz sələflərini hərtərəfli tanımalıdırlar".

Tibb elmləri doktoru, Əməkdar elm xadimi, professor Vaqif Şadlinskinin elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti bunlarla məhdudlaşmır. O, Azərbaycan Tibb Universitetinin insan anatomiyası və terminologiya kafedrasının müdiri olmaqla yanaşı, Azərbaycan Milli Yaradıcılıq Akademiyasının tibb doktoru, Respublika Ziyalılar Cəmiyyətinin vitse-prezidenti və Ziyalı Universitetinin fəxri doktoru, Azərbaycan Morfoloqlar Cəmiyyətinin sədri, Avropa patoloqlar, Qara dəniz və Baltikyanı ölkələrin, Anatomlar Cəmiyyətinin idarə Heyətinin üzvü, YUNESKO-nun nəzdində Beynəlxalq Kadrlar Akademiyasının anatomiya professoru, Qafqaz Xalqları Akademiyasının vitse-prezidenti, Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü, Beynəlxalq Morfoloqlar Assosiasiyasının Əlaqələndirmə Şurasının üzvü, Rusiya Tibb Elmləri Akademiyasının və Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki seçilib və hər iki akademiyanın qızıl və gümüş medallarına layiq görülmüşdür.

Əməkdar həkim elmdə və təhsildə əldə etdiyi uğurlara görə BMT-nin təsis etdiyi "I dərəcəli Hippokrat ordeni", Almaniyanın Hannover şəhərində keçirilən Beynəlxalq Konqresin Təşkilat Komitəsi tərəfindən "Robert Kox" medalı ilə təltif olunmuş professor V.Şadlinski həmçinin, Avropa Elmi Cəmiyyətinin və Avropa Təbiətşünaslıq Elmləri Akademiyası Şurasının birgə qərarına əsasən "Avropanın Fəxri Alimi" diplomuna layiq görülmüş, "Qızıl qələm" mükafatı laureatıdır.

Bu günlərdə görkəmli alim, Əməkdar elm xadimi, professor Vaqif Bilas oğlu Şadlinskinin anadan olmasının 80,



uzun illər çalışdığı ATU-nun İnsan anatomiyası və terminologiya kafedrasında əmək fəaliyyətinin 50 və kafedraya rəhbərliyinin 25 ili tamam olur. Bütün bu sadalanan rəqəmlər şərəfli keçmişin yaddaşlarda iz qoyan günləridir. Müsahibələrin birində professor V.Şadlinskiyə verilən Henri Luis Menkenin "Keçmiş qarşısında baş əy, gələcək üçün qollarını çırmala" ifadəsinə münasibətiniz sualını o belə cavablandırmışdır: "Keçmişimiz yaddaşımızdır. Ona nəzər saldıqda tarixi keçmişə malik Şadlinskilər nəslinin bir nümayəndəsi olmağım, tələbələrim, aspirant və dissertantlarım, minlərlə həkim-tələbələrim və verdiyimiz təhsilə görə onların ürəklə söylədikləri "Çox sağ olun" kəlməsi mənim üçün çox dəyərlidir. Hesab edirəm ki, keçmiş gələcəyə açılan bir gündür, gərək onu elə yaşayasan ki, gələcəyin işığı keçmişdəki qaranlıqları yarıb, nura qərq etsin. Çünki gələcək gün ümidimiz, inamımızdır".

Vaqif Şadlinski sözün həqiqi mənasında xoşbəxt insandır. Bu qeyrətli və torpaqsevər Vətən oğlunun ürəyində yalnız bircə nisgil, bircə möhnət, bircə istək var — doğma yurda qovuşmaq! Bu istəyə qovuşmağın isə tək bir yolu var — ora gedən qaranlıq yolları işıqlandırmaq. Bunun üçün işığa gedən yolu və onu nurlandıran işıqları, bizlərə yol göstərən ziyalıları qorumalıyıq. Çünki dünya işıqlı insanların çiyinləri üstündədir, nurunu günəşdən alan elmli insanların!

**Aidə BƏNDƏLİYEVA.**